# Bu günkü uğurlar son deyil

Son 10 ildə Prezident İlham Əliyev tərəfindən yürüdülən düzgün siyasət nəticəsində artıq Azərbaycan regionda liderə çevrilmişdir. Bu gün Azərbaycanın iqtisadi gücü ümumilikdə Qafqazın iqtisadi gücünün 80 faizə yaxınını təşkil edir. Regionda Azərbaycanın iştirak etmədiyi heç bir siyasi və iqtisadi layihə uğurlu sayıla bilməz. Azərbaycan iqtisadiyyatın artım tempinə görə dünyada lider dövlətlər sırasındadır. Azərbaycan regionun təhlükəsizlik qarantıdır. Bütün bu sadalanan nailiyyətlər, əlbəttə ki, cənab İlham Əliyev tərəfindən aparılan düzgün siyasətin nəticəsidir.

Cənab İlham Əliyevin son 10 ildə ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənib, müsbət imici formalaşıb. Artıq Azərbaycan deyəndə sadəcə bir neft ölkəsi deyil, tolerant bir cəmiyyət, güclü iqtisadiyyata malik etibarlı tərəfdaş kimi başa düşülür. Məhz bütün bunların sübutu kimi Azərbaycanın BMT kimi mötəbər bir təşkilatın Təhlükəsizlik Şurasına üzv seçilməsini göstərmək olar. Həmçinin Azərbaycanın irəli sürdüyü və reallaşmaqda olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də ölkəmizin artan iqtisadi və siyasi gücünün göstəricisidir.

Azərbaycanın təhsil sektorunda həyata keçirilən islahatlar nəticəsində təhsilin maddi-texniki bazası yaxşılaşmaqla yanaşı, həm də sabahın qurucuları olacaq tələbələrimiz keyfiyyətli təhsil almaq imkanı qazanırlar.

Son 10 ildə Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını şaxələndirməyi bacarmış, qeyri-neft sektorunun inkişafını sürətləndirmişdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının həyata keçirilməsinin nəticəsində iqtisadiyyatda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artmışdır. Yol infrastrukturunun, enerji təminatının yaxşılaşdırılması nəticəsində və eyni zamanda vergi güzəştlərinin tətbiqi regionlarda sahibkarlığın inkişafını sürətləndirib, işsizlik probleminin həllində öz əhəmiyyətli təsirini göstərib.

Son 10 ildə İKT sahəsinin inkişafında böyük uğurlar əldə edilib. 2013-cü ilin «İnformasiya Kommunikasiya Texnologiyaları ili» elan olunması və Azərbaycanın ilk milli peykini orbitə buraxaraq adını kosmik ölkələr sırasına yazması tarixi bir nailiyyətdir. Bundan başqa, elektron imza, elektron sənəd mübadiləsi, elektron hökumət layihələrinin həyata keçirilməsi, bir çox sahələrdə "bir pəncərə" sisteminin tətbiq edilməsi, ASAN xidmətin fəaliyyətə başlaması dövlət idarəetməsində innovativ meyllərə ən gözəl misallardır.

Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə bəyan etmişdir ki, hazırda ölkə qarşısında duran əsas məsələlərdən biri neft kapitalının insan kapitalına çevrilməsidir. Heç şübhəsiz ki, insan kapitalına yatırımın mərkəzində gənclər dayanır. Cənab Prezident Azərbaycanın gələcəyinin zamanın tələblərinə cavab verən ixtisaslı kadrlarla bağlı olduğunu qeyd edərək, gənclərimizin dünyanın ən nüfuzlu universitetlərində dövlət hesabına təhsil almalarını reallaşdırdı.

Azərbaycan gənclərinin hərtərəfli inkişafını təmin etmək və onlara yönəlmiş siyasəti keyfiyyətcə yeni mərhələyə qaldırmaq üçün gənclərlə bağlı dövlət proqramı qəbul edildi. Bu proqramın uzun ictimai müzakirələrdən sonra və gənclərin təşəbbüs və təkliflərinin nəzərə alınaraq qəbul edilməsi onu göstərir ki, cənab Prezident gənclərimizin ölkədə gedən inkişaf prosesində fəal iştirakında maraqlıdır.

Hazırda gənclərə özlərini realizə etmək üçün lazımi şərait yaradılmışdır. Biz Azərbaycanda gənclərin inkişafına göstərilən diqqətin nə qədər yüksək olduğunu digər ölkələrin gənclər siyasəti ilə müqayisə zamanı açıq-aydın görürük. Məhz bu səbəbdəndir ki, gənclər siyasətində Azərbaycan modeli yaranmağa başlayıb. Bu model resursları səmərəli və düzgün formada insan kapitalının inkişafına yönəldilməsi üzərində qurulub.

Son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi uğurlar göz qabağındadır. Bu uğurların kökündə əsası ulu öndər tərəfindən qoyulmuş uzaqgörən siyasət durur və tam əminliklə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı hələ çox yüksəlişlər gözləyir. Bu gün cənab İlham Əliyev gənclərin ən böyük dəstəkçisi və onların inkişafının təminatçısı olduğu kimi. gənclər də daim cənab Prezidentin yanındadır.

**Aslan CƏLİLOV.**

# 12 noyabr– Konstitusiya Günüdür

**(Əvvəli 3-cü səhifədə).**

Çətin vəzifənin öhdəsindən o zamanlar Azərbaycana rəhbərlik edən Heydər Əliyev gəldi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Bu sənədə görə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunurdu. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsinin imzalandığı andan etibarsız olduğu göstərilirdi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsini hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradılmışdı. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də qüvvəyə mindi.

Yeni Konstitusiya ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması işinə hüquqi zəmin yaratdı. Əsas Qanunda dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsinə və vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və sair kimi maddələr təsbit olunmuşdu.

Artıq zaman Əsas Qanunumuzun nə qədər güclü, kamil və həyati sənəd olduğunu təsdiqləmiş və o, demokratik sənəd kimi özünü doğrultmuşdur. Bu möhkəm bünövrə üzərində ucalan dövlətçiliyimiz öz demokratik mahiyyəti ilə ümumavropa dəyərlərindən faydalanmış, xalqımız öz həqiqətlərini dünyaya bəyan etmək imkanı qazanmışdır. Əsas Qanunumuzda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur.

Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir.

Konstitusiyanın 24-cü maddəsinin 1-ci hissəsində deyilir: "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır".

Milli Konstitusiyamızın qəbul edilməsindən sonrakı dövr ərzində Milli Məclis tərəfindən ölkə həyatının bütün sahələrini əhatə edən, dünya standartlarına cavab verən bir sıra qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, Avropa Şurasına üzv qəbul olunmuşdur.

Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsinə dair referendum keçirildi. Xalqın iradəsinin nəticəsi olaraq Konstitusiyada 24 dəyişiklik və əlavə edildi. Bunlar insan hüquqları və azadlıqları, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə, seçki sistemi, hakimiyyət bölgüsü və sair ilə bağlı dəyişiklik və əlavələrdir.

**Miri RƏHİMOV.**

# Doğma ölkəmizdə

**Gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını üstələyir**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə 2013-cü ilin 9 ayında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,6 faiz artaraq 25,4 milyard manata çatıb. Gəlirlərin hər nəfərə düşən həcmi orta hesabla 2736,5 manat və ya ayda 304,1 manat təşkil edib. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 3,9 faiz bəndi üstələyərək 6,2 faiz olub.

Bu dövr ərzində gəlirlərin 68,5 faizi son istehlaka, 9,1 faizi vergilər, sosial sığorta və üzvlük haqlarının, 1,7 faizi kreditlər üzrə faizlərin ödənilməsinə, 20,7 faizi isə əmanətlərin və kapitalın artırılmasına yönəldilib. Əhalinin sərəncamında qalan gəliri 23,1 milyard manat təşkil edib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,5 faiz artım deməkdir.

**Azərbaycan neftinin dünya bazarına çıxarılması davam edir**

2013-cü ilin sentyabr ayı ərzində 2 milyon 45 min 350 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb. Bu həcmin 1 milyon 297 min 92 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib.

Yanvar-sentyabr aylarında Ceyhan limanından dünya bazarlarına 21 milyon 942 min 966 ton neft çıxarılıb. Ümumiyyətlə, Heydər Əliyev adına Bakı—Tbilisi—Ceyhan kəməri istismara verilən gündən 2013-cü il oktyabr ayının 1-nə qədər Ceyhan limanından 225 milyon 609 min 620 ton Azərbaycan nefti dünya bazarlarına yola salınıb.

**Heyvandarlıq məhsulları istehsalı artır**

Respublikamızın təsərrüfatlarında oktyabr ayının 1-nə olan vəziyyətə görə qaramalın sayı 2728,7 min baş, o cümlədən 1311,7 min baş inək və camış 8770,9 baş qoyun və keçi olmuşdur. bu da keçən ilin müvafiq dövründəkindən 1 faiz çox artım deməkdir.

Qeyd olunan dövrdə diri çəkidə 358,1 min ton ət, 1385,5 min ton süd, 1043,4 milyon ədəd yumurta və 16,3 min ton yun istehsal olunmuşdur.

**Topladı:**
**N. ATAKİŞİYEV.**